YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ EDƏN HƏRBİ HİSSƏLƏR MÜKAFATLANDIRILIB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, sentyabr ayının 1-dən 30-dək hərbi hissələr arasında maddi-texniki tədris bazasına və kütləvi-idman işinə baxış müsabiqələri keçirilib.

Müsabiqələrin keçirilməsi zamanı hərbi hissələrdə təlim şəhərcikləri, döyüş təlimi məşğələləri üçün hazırlanmış maddi-texniki tədris bazası, onların yenilənməsi və təkmilləşdirilməsi yoxlanılaraq, müvafiq bal sistemi ilə dərəcələndirilib. Kütləvi-idman işinin təşkili üzrə hərbi hissələrdə fiziki hazırlıq işinin vəziyyəti, bununla əlaqədar, planlaşdırma və sənədləşdirmə işləri yoxlanılıb, hərbi qulluqçular tərəfindən hərbi-idman kompleksi normativlərinin yerinə yetirilməsi qiymətləndirilib.

Keçirilən müsabiqənin nəticələrinə görə yerlər aşağıdakı kimi müəyyənləşib:

Maddi - texniki tədris bazası üzrə:

I yer - 17074 saylı hərbi hissə;

II yer - 12318 saylı hərbi hissə;

III yer - 17072 saylı hərbi hissə;

Kütləvi-idman işi üzrə:

I yer - 17072 saylı hərbi hissə;

II yer - 25033 saylı hərbi hissə;

III yer - 99713 saylı hərbi hissə;

Yüksək nəticələr göstərərək 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülən hərbi hissələr Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmri ilə mükafatlandırılıb.

Mətbuat xidməti

Baş leytenant Nemət Ağayev 16075 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularındandır. O, 1985-ci il noyabr ayının 23-də Bakı şəhərində dünyaya göz açıb. Orta məktəbi uğurla başa vuran Nemət 2004-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olub. Ali təhsilini bitirdikdən sonra 2008-ci ildə Daxili Qoşunların 17072 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

Hələ uşaq ikən onu əhatə edən mühit, atasının hərbçi olması ürəyində bu peşəyə olan rəğbət hissini getdikcə artırırdı. Bu səbəbdən artıq həddi-büluğa çatmış gənc oğlan öz yolunu seçərək, 2010-cu ildə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayır.

Vətənpərvər hərbi qulluqçu ilk günlərdən intizamı, dözümlülüyü ilə fərqləndiyi üçün bir müddət sonra gizir hərbi rütbəsi verilməklə yarımqrup komandiri vəzifəsinə təyin olunur.

"HƏR KƏS ÖZ VƏZİFƏSİNİN İCRASINA SON DƏRƏCƏ MƏSULİYYƏTLƏ YANAŞMALIDIR"

2013-cü ildə isə artıq peşə vərdişlərinə yiyələnən, nümunəvi xidmətlə seçilən baş leytenant N.Ağayev komandanlıq tərəfindən zabit hərbi rütbəsinə layiq görülür.

Hazırda o, xüsusi təyinatlı dəstədə komandir müavini vəzifəsindədir. Tutduğu vəzifənin məsuliyyətini dərk edən zabitimiz ona göstərilən etimadı doğrultmaq üçün hər zaman öz üzərində çalışır. Baş leytenant N.Ağayev döyüş hazırlığı məşğələlərinin təşkilinə və aparılmasına, təlimin maddi-tədris bazasının qorunub saxlanılmasına, dəstədə daxili qayda-qanuna və hərbi intizama nəzarət edir. Komandir tərəfindən verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə dəfələrlə hərbi hissə komandiri tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Tabeliyində olanlara qarşı tələbkar olsa da onlara diqqət və qayğısını da əsirgəmir. O düşünür ki, hər bir Vətən övladı öz işində ciddi, tələbkar olarsa, o zaman irəliləyişlər bir-birini əvəz edər: "Hər kəs öz vəzifəsinin icrasına son dərəcə məsuliyyətlə yanaşmalıdır. Belə olarsa, qarşıda duran ən ümdə vəzifələri layiqincə yerinə yetirmiş olarıq".

leytenant N.Ağayeva

Zəngin hərb tariximiz

DÜNYA HƏRB TARİXİNDƏ AZƏRBAYCAN SƏRKƏRDƏLƏRİNİN YERİ

Dünya tarixində yeritdiyi hərbi taktika və strategiyası ilə döyüşün gedişini öz xeyrinə dəyişən görkəmli sərkərdələr çox olub. Onların seçdiyi düzgün taktika məğlub olmaq ərəfəsində olan hərbi qüvvələri belə sonda savaşın qalibinə çevirə bilib. Bir çox məşhur sərkərdələr var ki, onların hərb sənətinə gətirdiyi taktikalardan bu günün hərbi əməliyyatlarında da uğurla istifadə olunur.

Qədim dövrlərdə Sparta hökmdarı Menelay 300 nəfərlik qüvvə ilə tutduğu əlverişli mövqe sayəsində İran Əhəməni dövlətinin çoxsaylı qüvvələrinin irəliləməsinin qarşısını xeyli müddət ləngidə bilmişdi. Karfagen sərkərdəsi Hannibal hərbi sənəti ilə uzun müddət qədim Roma Respublikasını qorxu içində saxlamış, Kann döyüşündə yeritdiyi mükəmməl taktika ilə zəfər çalmışdı. Hitlə İkinci Cahan Müharibəsindəki Kursk döyüşündə rusların alman faşistlərinə qarşı həyata keçirdiyi taktika zamanı da Kann döyüşünün strategiyasından istifadə olunub. Makedoniyalı İsgəndər özündən 5-6 dəfə çox olan Əhəməni ordusunu mükəmməl hərbi istedadı sayəsində az müddət ərzində pərən-pərən salmağa nail oldu. Orta əsrlərdə monqolların böyük hökmdarı Çingizxan yüksək sərkərdəlik bacarığını nümayiş etdirərək, qısa müddətdə o vaxt bəlli olan dünyanın yarısına sahib çıxmışdı. Osmanlı İmperiyasının hərbi sərkərdələri də möhtəşəm bacarıqları sayəsində dəfələrlə rəqiblərini məğlub durumda qoya bilib. Fransada Napoleon Bonapart top atəşi sənətinin ustası kimi şöhrət qazanmışdı. O, Fransanın cənubunda Tulon şəhərini tutan ingilis ordusunu özünün sərrast top atəşilə heyran qoydu. Rusiya tarixində də hərb sənətinin məşhur sərkərdələri olub. Təkcə Suvorovun adını çəkmək kifayətdir. Generalissimus rütbəsinə kimi yüksələn bu dahi şəxs mükəmməl taktikası ilə özündən qat-qat çox qüvvənin öhdəsindən asanlıqla gəlmək bacarığı ilə seçilirdi.

Vətənimiz Azərbaycan da hərb sənətinin bir çox görkəmli sərkərdələrini yetişdirib. Girdiman dövlətinin başçısı Cavanşir həm də sərkərdəlik bacarığı ilə seçilirdi.

816-837-ci illər arasında məşhur sərkərdəmiz Babək əqrəb işğalçılarının 6 ordusunu darmadağın edib. Bu qələbələr bir sərkərdə kimi onun həyata keçirdiyi strategiya nəticəsində əldə olunmuşdur.

Erkən orta əsrlərdə Şəmsəddin Eldəniz, onun oğlu Məhəmməd Cahan Pəhləvan, Qara Yusif, Uzun Həsən kimi hökmdar və sərkərdələrimiz də qələbələri həyata keçirdikləri xüsusi taktikalar vasitəsilə qazanmışlar.

Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai 14 il ərzində az qüvvə ilə 14 vilayəti özünə tabe etməyə nail olmuşdur.

Azərbaycanın hərbçi sərkərdələrinin başında isə heç şübhəsiz, Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski dayanır. Bu dahi şəxsələrin hərb sənətinin tarixində xüsusi yeri var. Onlar nəinki Azərbaycanın, hətta dünyanın hərb tarixində mühüm yer tutur.

Ə.Şıxlinskinin "Şıxlinski üçbucağı" dərsliyindən təkcə Rusiyada deyil, Fransa, Norveç, Avstriya, İsveçrə və bir sıra digər ölkələrin artilleriya məktəblərində dərslik kimi istifadə olunub. Bu şəxs Fransanın yüksək ordeni sayılan "Legion" ordenilə təltif olunan yeganə azərbaycanlıdır. Rus-Yapon müharibəsində Port-Arturun müdafiəsində şəxsi şücaətilə seçilib. Əbəs yerə deyil ki, ona "artilleriyanın allahı" adını veriblər.

Böyük Vətən Müharibəsi illərində tank diviziyasına rəhbərlik edən general-mayor Həzi Aslanovun Pribaltikanın azad olunması zamanı həyata keçirdiyi uğurlu manevrlər faşistləri çaş-baş salmışdı.

Bundan başqa, Azərbaycanın hərb tarixində görkəmli rol oynamış Cəmşid Naxçıvanski, Fərrux ağa Qayıbov və s. bu kimi məşhur sərkərdələr olub ki, onlar da dünya hərb taktikası və strategiyasına özünəməxsus töhfələr veriblər. Bununla həm də Azərbaycanın tanıdılmasında böyük xidmətlər göstəriblər. Bu tanınmış simalarımız xalqımızın hərb sahəsində də böyük nailiyyətlər əldə etməyə qadir olduğunu nümayiş etdiriblər.

Siyasi şərhçi, professor Vaqif Arzumanlı bildirir ki, Azərbaycan hərbçiləri dünya hərb tarixində müəyyən mənada bəzi misilsiz xidmətlərlə yadda qalıblar: "İstər XIX, istərsə də XX əsrdə baş verən bir sıra müharibə və dövlətlərarası münaqişələrdə iştirak edərkən ayrı-ayrı şəxsiyyətlərimiz müəyyən taktika və özünəməxsus hərbi strategiyaları ilə fərqləniblər. İlk növbədə 1905-ci ildəki Rus-Yapon müharibəsində həmvətənimiz Əliağa Şıxlinskinin qazandığı uğurları qeyd etmək olar. Həmin müharibə zamanı Ə.Şıxlinskinin uzaqvuran topların strategiyası ilə bağlı "Şıxlinski nəzəriyyəsi" və "Şıxlinski üçbucağı" adı ilə məşhur olan praktik və nəzəri ideyaları böyük rol oynayıb. Port-Artur döyüşündə Ə.Şıxlinskinin göstərdiyi xidmət o vaxtkı çar hökuməti tərəfindən yüksək qiymətləndirilib.

Digər tərəfdən, Azərbaycanın bir çox generalları XIX əsrdə, məsələn, Abdulla ağa Bakıxanov, Naxçıvanskilər adını daşıyan generallar uzun müddət Rusiya ordusunda xidmət edib və bu xidmət zamanı öz hərbi strategiyası ilə seçilən sərkərdələrdən olublar.

Bu mənada Həzi Aslanovu xüsusi olaraq vurğulamaq yerinə düşər. İki dəfə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülən Həzi Aslanov İkinci Dünya Müharibəsində tank döyüşlərinin allahı, mahir bilicisi kimi şöhrət qazanıb. O, Stalinqrad ətrafında Almaniyanın tank qoşunlarına qarşı apardığı döyüşlərdə sovet hərbi doktrinasına xeyli töhfə verib.

Bundan başqa, ayrı-ayrı dövrlərdə - istər XVIII-XIX əsrdəki Rusiya-İran, Rusiya-Türkiyə müharibələrində, istərsə də Birinci və İkinci Dünya Müharibələrində əslən azərbaycanlı olan bir sıra general və hərbçilərimiz öz fəaliyyətlərilə seçiliblər. Azərbaycanın ilk hərbi-qırıcı təyyarəçisinin Rusiyada böyük şöhrət qazanması, habelə ayrı-ayrı hərbçilərinin böyük uğurlara imza atması bu cəhətdən xüsusi olaraq qiymətləndirilə bilər.

Vaxtı ilə Azərbaycan türklərinə, müsəlmanlara rusiyalı hərbçilər bəzən o qədər də etibar etmirdilər. Bu nəinki çar dövründə, hətta İkinci Dünya Müharibəsi zamanı da müəyyən hallarda özünü büruzə verirdi. Amma bu düzgün mövqe deyildi. Çünki Azərbaycandan rus hərb tarixində xeyli general və polkovnikin xidmətləri var və bunlar danılmaz faktlardır. Məsələn, xanlıqlar dövründə Azərbaycanın, demək olar ki, hər bir xanlığının bəzi övladları Peterburqda, Moskvada hərbi məktəblərdə təhsil alıb. Onlar bir tərəfdən zamin kimi saxlanırdı, digər tərəfdən də fürsətdən istifadə edərək hərbçi kimi təhsillərini artırırdılar. Onlar Rus hərbi texnikasına yiyələnməklə özlərini döyüşdə mahir hərbçi kimi göstərə bilidlər. Rusiya-Polşa müharibəsində İsmayıl bəy Qutqaşınlı o zamanın ən nüfuzlu hərbçilərindən biri olub. Hətta deyilənə görə o, vaxtı ilə general rütbəsinə də layiq görülüb. İ.Qutqaşınlı bir hərbçi kimi at üstündə binanın 4-5-ci mərtəbələrinə pilləkənlərlə qalxarmış. Ona bu cəsarətinə görə "Qafqaz Sultaneviçi" adını veriblər.

Sözügedən müharibədə general Abbasqulu ağa Bakıxanovun da çoxsaylı rəşadətləri olub. Tarixi faktlar göstərir ki, istər XIX əsrdəki Rus-Türk müharibələri, istərsə də hər iki dünya müharibəsində çoxsaylı azərbaycan türkü olan general və polkovniklər olub ki, onlar məxsus olduqları ordunun tərkibində son damla qanlarına qədər vuruşublar. Bizimkilərin guya hərbi sənətə yararlı olmaması barədə deyilənlər isə rus şovinizmi və ermənı uydurmasının izləridir. Bunların heç biri həqiqəti əks etdirmir".

Keçmiş hərbi jurnalist Telman Nəsərli Mehmandarovun sözügedən keyfiyyətlərə malik böyük sərkərdə olduğuna diqqət yetirir: "Görkəmli sərkərdəmiz Səməd bəy Mehmandarov artilleriya sahəsində bir çox yeniliklərin müəllifidir. Bu tarixi şəxsiyyətə həsr olunan "Səməd bəy" adlı sənədli filmin ssenari müəllifi olmuşam. Burada bir məqamı xüsusi olaraq qabartmışdıq ki, Səməd bəy Mehmandarov müdafiə naziri olan kimi birinci növbədə top və mərmi, yeni artilleriya məsələlərini öna çəkərək qeyd edib ki, bu, ordunun bel sütunudur. Yeni bütün müharibələrdə artilleriya olmadan hansısa bir qələbəyə nail olmaq qeyrimümkündür. Dünya müharibəsində də bu praktika qəbul olunub. Artilleriya olmadan piyada heç vaxt istədiyinə nail ola bilmir.

S.Mehmandarovun ilk fərmanlarından biri də ordumuzda ana dilinin təbdiqilə bağlı olub. O, bunun orduda əsgərin verilən əmri daha yaxşı qavraması üçün lazım olduğunu söyləmişdi. Bunu da onunla bağlayırdı ki, orduda əsgərin mənəvi cəhətdən tam yetkin formalaşması üçün yuxarıdan aşağı verilən əmrləri tam mənimməsi vacib şərtdir. Bunun həlli üçün müəyyən müddət qoyuldu, kurslar keçirildi. Qısa zamanda, təxminən 2-3 ay ərzində əmr qüvvəyə minərək tətbiq olundu. Ondan sonra gördülər ki, bütün sahələr, xüsusən də artilleriya sahəsindəki əsgərlər döyüş prinsiplərini daha asan qavramağa başlayıb. Dünya praktikasında fərqlənmə baxımından Mehmandarovun xidməti artilleriyanın bütün parametrləri üzrə vaxtında və yerində işlədilməsi prinsipi olub. Bu, müharibənin zəfərlə başa çatmasında həlledici əhəmiyyət daşıyırdı. İkinci Dünya Müharibəsində Həzi Aslanovun taktikası xüsusilə seçilirdi. Biz Azərbaycan hərb tarixini əsasən məlum Cümhuriyyət dövründən götürmüşük. Çünki məsələyə milli kadr baxımından yanaşıldı. Bu sıraya Əliağa Şıxlinskini də əlavə etmək olar".

Allah rəhmət eləsin

12318 saylı hərbi hissənin şəxsi heyəti leytenant Rəvan Yaqubova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 21 (487)
31 oktyabr
2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

PREZİDENT İLHAM ƏLİYEVİN QAZAX VƏ AĞSTAFA RAYONLARINA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Prezident İlham Əliyevə abidənin ətrafında salınan Heydər Parkında aparılan abadlıq-quruculuq işləri, həmçinin, son illərdə rayonda həyata keçirilən layihələr barədə ətraflı məlumat verdi.

İlham Əliyev Qazax-Kosalar avtomobil yolunun yenidənqurmadan sonra təqdimatında iştirak edib.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev Qazax rayonunda "Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə yaxından tanış olub.

Təsərrüfat 151 hektar sahədə yaradılıb. 15 hektar sahədə isə süni yağışyağdırma üsulunun tətbiqi ilə pivot suvarma sistemi qurulub. Bu da məhsuldarlığı 2-3 dəfə artırmağa imkan verəcək. Bildirildi ki, gələcəkdə fermer təsərrüfatının istifadəsində olan torpaqlarda kartofla yanaşı, soğan, kök və digər tərəvəz məhsullarının əkilməsi nəzərdə tutulur.

Dövlət başçısı ərazidə məhdud məsuliyyətli cəmiyyət üçün inşa olunan inzibati binada yaradılan şəraitlə tanış oldu.

Müəssisənin ərazisini gəzən Prezident İlham Əliyevə məlumat verildi ki, bu təsərrüfat regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinin bəhrəsidir.

Prezident İlham Əliyev Qazax rayonunda 110/35/6 kilovoltluq "Daş Salahlı" yarımstansiyasının açılışında iştirak edib.

Yarımstansiyanın binasında Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkənin elektroenergetika sistemini, o cümlədən, ötürücü və paylayıcı şəbəkənin hərtərəfli inkişafı üçün həyata keçirdikləri layihələri əks etdirən fotostendlər yaradılıb.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, Qazax rayonunun böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, eləcə də ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi məqsədilə 110/35/6 kilovoltluq yeni "Daş Salahlı" yarımstansiyası inşa edilib.

Dövlət başçısı "Daş Salahlı" yarımstansiyasını işə saldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışını edib.

Dövlətimizin başçısı əvvəlcə binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, 1984-cü ildə yaradılan muzey müasir tələblərə cavab verməyən birmərtəbəli binada fəaliyyət göstərirdi. Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının inşasına 2015-ci ilin noyabr ayında başlanılıb və 2016-cı ilin oktyabrında tikinti işləri başa çatdırılıb.

Binanın birinci mərtəbəsində Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Həmçinin, bu mərtəbədə muzey barədə ümumi məlumat, tabiət, arxeologiya, qədim daş dövrü, orta əsrlər və "bay evi" bölmələri var.

Tarix-Diyarşünaslıq Muzeyinin ikinci mərtəbəsində "Qazax xalça məktəbi", "Etnoqrafiya və folklor", "Qazax XIX-XXI əsrin əvvəllərində", "Səməd Vurğun", "Görkəmli şəxsiyyətlər", "1929-1990-cı illər", "Müasir dövr" və "Azərbaycan XXI əsrdə" bölmələri yaradılıb. Burada Qazaxın qədimdən bugünədək keçdiyi inkişaf yolu, təbiəti, mədəniyyəti, adət-ənənəsi, məişəti, tanınmış insanları haqda maraqlı məlumatlar və eksponatlar toplanıb.

Həmin gün Prezident İlham Əliyev Ağstafa rayonuna səfərə gəlib.

Dövlət başçısı əvvəlcə Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzinda ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevə ətrafda aparılan abadlıq-quruculuq və yenidənqurma işləri barədə məlumat verdi. Bildirildi ki, ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi qurulub.

Prezident İlham Əliyev Ağstafaya səfəri çərçivəsində əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzinda yaradılan şəraitlə tanış olub.

Respublikamızda bütün sahələrin inkişafında, dövlətimizin beynəlxalq nüfuzunun artmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin zəngin irsi ölkəmizin bütün bölgələrində öyrənilir. Ümummilli Liderin xalqımız qarşısındakı tarixi xidmətlərini daha dərindən öyrənmək məqsədi ilə Ulu Öndərin adını daşıyan muzeylər və mərkəzlər müstəsna əhəmiyyətə malikdir. Son dövrlərdə bir çox bölgələrdə bu cür mərkəz və muzeylər istifadəyə verilib. Bu baxımdan Ağstafada əsaslı şəkildə təmir edilərək yenidən qurulan Heydər Əliyev Mərkəzi də xüsusi rola malikdir.

Burada yaradılan 400 yerlik akt zalı müasir akustika avadanlığı ilə təchiz olunub. Akt zalında rayon əhəmiyyətli mühüm tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Mərkəzdə nikah mərasimləri üçün otaq, memarlıq, incəsənət, reklam, xalçaçılıq studiyaları fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev Ağstafa rayonuna səfəri çərçivəsində "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradılmış "Modern" mebel fabrikinin açılışında iştirak edib.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir, yeni-yeni sənaye və emal müəssisələri yaradılır. Ağstafa rayonunda "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində "Modern" mebel fabrikinin yaradılması bunu bir daha təsdiqləyir.

Dövlətimizin başçısı əvvəlcə "Saloğlu" mebel fabrikinin məhsullarına baxdı, müəssisənin yeni layihələri ilə tanış oldu.

Daha sonra Prezident İlham Əliyev "Modern" mebel fabrikini işə saldı.

Prezident İlham Əliyev Ağstafa şəhərində Musiqi Mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Son dövrlərdə bölgələrdə müasir tipli yeni mədəniyyət infrastrukturları yaradılır. Bu, özünü mövcud mədəniyyət və incəsənət obyektlərinin yenidən qurulmasında və yenilərinin inşasında aydın göstərir. Ağstafada müasir üslubda inşa edilən Musiqi Mərkəzi də bu sırada mühüm yer tutur.

Mərkəzin binası Prezident İlham Əliyevin 2014-cü il 30 iyun tarixdi Sərəncamına uyğun olaraq inşa edilib. Qədim musiqi aləti olanud formasında inşa edilən mərkəzin 300 şagird yerlik binası 3 mərtəbədən ibarətdir.

Prezident İlham Əliyev mərkəzdə yaradılan şəraitlə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, hazırda Ağstafa şəhər Musiqi Məktəbində 90 müəllim çalışır və 269 şagird təhsil alır. Burada təhsil müddəti 5 və ya 7 ildir.

Prezident İlham Əliyev şagirdlərin ifasını dinlədi.

Prezident İlham Əliyev Ağstafa Rayon Mədəniyyət Mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Bu gün digər sahələr kimi mədəniyyət sahəsi də dövlətimizin yüksək qayğısı ilə əhatə olunub. Azərbaycanda mədəniyyət sahəsinə dövlət səviyyəsində gündən-günə güclənən qayğı bu gün özünü daha aydın büruzə verir. Bu sahədə çalışanların iş şəraitini günün tələbləri səviyyəsinə çatdırmaq üçün məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Ağstafa Rayon Mədəniyyət Mərkəzinin əsaslı şəkildə yenidən qurulması bu qəbildən olan tədbirlərdəndir. Bu cür layihələrin paytaxtla yanaşı, regionlarda da geniş vüsət alması, ümumilikdə, respublikamızda mədəniyyət sahəsinin inkişafına töhfə verir.

Dövlət başçısı Mədəniyyət Mərkəzinin binasında yaradılan şəraitlə tanış oldu.

Prezident İlham Əliyev "Ağstafa Aqroservis" MMC-nin nəzdində yaradılacaq taxıl və un məmulatları istehsalı kombinatının taxıl anbarının təməlqoyma mərasimində iştirak edib.

Dövlət başçısına məlumat verildi ki, Ağstafa taxıl və un məmulatları istehsalı kombinatının inşasına 2015-ci ilin martında başlanılıb, tikinti işlərinin başa çatdırılması 2017-ci ilin may ayına nəzərdə tutulub. Kombinat 3 zavoddan ibarət olacaq. Bunlar "Toxumluq taxıl emalı", "Taxıl emalı və un istehsalı", "Çörək və yarımfabrikatlar istehsalı" zavodlarıdır.

Dövlət başçısına yeni yaradılacaq taxıl dəyirmanı barədə məlumat verildi.

Dəyirman müasir iqtisadiyyatın tələbinə uyğun olaraq yeni texnologiyalarla təchiz ediləcək. Bu texnologiyaların tətbiqi dəyirmanda keyfiyyətli məhsul əldə etməyə imkan verəcək.

Prezident İlham Əliyev yeni dəyirmanın təməlini qoydu.

Dövlət başçısı burada hazır məhsul anbarına da baxdı.

Prezident İlham Əliyev Ağstafada "Karvan-L EKO" sənaye parkında inşası başa çatdırılan müəssisələrin və istixana kompleksinin açılışında iştirak edib.

Şirkətin rəhbəri Əbülfəz Qafarov Prezident İlham Əliyevə məlumat verdi ki, sənaye parkının istehsal sahəsi 11 müəssisə və 1 istixana kompleksindən ibarətdir.

Prezident İlham Əliyevə "Karvan-L" elmi istehsalat birliyinin müəssisələrində hazırlanan məhsullar təqdim olundu.

Sonra dövlət başçısı müəssisələrin və istixana kompleksinin açılışını etdi.

Prezident İlham Əliyev yeni müəssisələrlə tanış oldu.

Müəssisə ilə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri və kompleksin işçiləri ilə görüşdü.

AZƏRTAC

Oktyabrın 22-də Quba şəhərində sərhədyanı ərazilərdə daxili işlər orqanlarının və polisin qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər Nazirliklərinin İxtisaslaşdırılmış İşçi Qrupunun növbəti iclası keçirilib.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Tədbir iştirakçıları sərhədyanı ərazilərdə ictimai təhlükəsizliyin təmini, ekstremizm və terrorçuluğun qarşısının alınması, transmilli mütəşəkkil cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə sahələrində Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər Nazirlikləri arasında əməkdaşlığın perspektivlərinə, həmçinin, cinayətkarlıqla mübarizənin prioritet istiqamətlərinə, o cümlədən İxtisaslaşdırılmış İşçi Qrupunun ötən ildəki fəaliyyətinin yekunlarına, onun 2017-2018-ci illər üçün Planının müzakirəsi və təsdiqinə, sərhədyanı ərazilərdə "Sərhəd-Sipər" kompleks əməliyyat-profilaktiki tədbirlərin təşkili və həyata keçirilməsinə, axtarışda olan şəxslər barədə məlumatların mübadiləsinə dair məsələləri müzakirə ediblər.

Görüşdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, Respublika Daxili İşlər Nazirinin birinci müavini polis general-leytenantı Vilayət Eyvazov indiki görüşün də Daxili İşlər Nazirlikləri arasında əməkdaşlığın daha dərinləşdirilməsi kursunun, əvvəllər əldə olunmuş razılaşmaların dönmədən həyata keçirilməsinin əyani təsdiqi olduğunu vurğulayıb, ölkəmizdəki əlverişli kriminogen durum, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində birgə əməkdaşlığın nəticələri barədə qonaqlara ətraflı məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

Qeyd olunub ki, müasir təhdid və təhlükələrin qarşısının birgə alınması üçün tərəflər qarşılıqlı şəkildə razılaşdırılmış optimal qərarlar hazırlayaraq qəbul ediblər. Əməkdaşlıq üçün əsas baza, heç şübhəsiz ki, ictimai təhlükəsizliyin təmin olunmasında, eyni zamanda, beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə dəqiq işbirliyi olub. Hər iki dövlətin Daxili İşlər Nazirliklərinin sahələrarası xidmətlərinin sıx əlaqələ fəaliyyəti nəticəsində son illər bəzi əks-səda doğurmuş minlərlə cinayəti açmaq, çoxsaylı dayanıqlı transmilli kriminal birlikləri zərərsizləşdirmək, bir sıra təhlükəli cinayətkarları yaxalayaraq ekstradisiya etmək mümkün olub. Təkcə 2015-ci ildə və cari ilin 9 ayında birgə səylərlə Rusiya Federasiyasının ərazisində axtarışda olan 87 nəfər tutulub. Rusiya tərəfindən dövlətlərarası axtarışa elan edilmiş 371 şəxsin yeri ölkəmizdə müəyyən olunub ki, onların da ekstradisiyasına lazımi köməklik göstərilib.

Tərəflər sərhədyanı ərazilərdə cinayətkarlığın vəziyyətini müzakirə edib, insan hüquqlarına və milli qanunvericiliyin normalarına ciddi riayət olunmaqla əməliyyat şəraitinə daha əməli təsir göstərilməsinin yolları, forma və metodları barədə geniş fikir mübadiləsi aparıblar. Kriminogen durumun inkişaf tendensiyaları, onun mənfi təzahürləri, axtarışın və itkin düşənlərin gəstəricileri təhlil edilərək mövcud beynəlxalq hüquqi bazə və qəbul olunmuş sənədlər əsasında əməkdaşlığın gücləndirilməsinin zəruriliyi vurğulanıb.

Görüşdə sərhədyanı ərazilərdə daxili işlər orqanlarının və polisin qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər Nazirliklərinin İxtisaslaşdırılmış İşçi Qrupunun fəaliyyətinə dair maraqlı fikir mübadiləsi aparılıb, bu qurumun işinin səmərəliyinin artırılmasına dair bir sıra konkret təkliflər irəli sürülüb. Ümumən, görülən işlər mübsət qiymətləndirilib, sərhədyanı zonaların ərazi və xətt polis orqanları arasında peşəkar əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş əlavə səylərin göstərilməsi tövsiyə olunub.

Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Şimali Qafqaz Federal Dairəsi üzrə Baş İdarəsinin rəisi polis general-mayoru Sergey Bəçurin ikitərəfli əməkdaşlığa yüksək qiymət verərək onun daim yeni əməli məzmunla zənginləşdiyini, son illər belə səmərəli və faydalı işbirliyi sayəsində cinayətkarlıqla mübarizənin bir sıra sahələrində müsbət nəticələr əldə edildiyini vurğulayıb, peşəkar əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə Rusiya Federasiyası Dağıstan Respublikasının Daxili İşlər Naziri polis general-leytenantı Abduraşid Maqomedov, Azərbaycan və Dağıstan DİN-lərin adiyyəti baş idarə və idarə rəisləri, hər iki ölkənin sərhədyanı bölgələrinin polis orqanlarının rəisləri və digər məsul şəxslər iştirak ediblər.

Səmimi və işgüzar şəraitdə keçən idarə nəticələrinə dair yekun sənədlər, o cümlədən, müvafiq protokol imzalanıb.

Rusiya Federasiyası DİN-in nümayəndə heyətinin üzvləri onlara göstərilən qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə azərbaycanlı həmkarlarına minnətdarlıqlarını bildiriblər.

9 NOYABR - DÖVLƏT BAYRAĞI GÜNÜ

Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir

Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət Bayrağımız - milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır.

Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, müasirlik və islamçılıq" düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

Azərbaycan Respublikasının dövlət bayrağından istifadə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələri, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikasının Qanunu, eləcə də həmin qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" əsasında tənzimlənir. Dövlət bayrağının rəngli və sxematik təsviri adıçəkilən qanun və əsasnamə ilə təsdiq edilmişdir.

Əsasnamədə görə, Azərbaycan Respublikasının Dövlət bayrağı eni və uzunluğu bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Bayrağın eninin uzununa nisbəti 1:2-dir. Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir, düzbucaqlının diaqonalı bayrağın eninin 1:2-nə bərabərdir. Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir, böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1:4-nə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1:60-nə bərabər olan məsafədə yerləşir. Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1:6-nı, daxili dairəsinin diametri isə 1:12-ni təşkil edir.

Azərbaycan Respublikasının Dövlət bayrağı və onun təsviri, ölçülərindən asılı olmayaraq təsvirlərə həmişə dəqiq uyğun gəlməlidir.

Prezident İlham Əliyevin Azərbaycanda Dövlət Bayrağı Gününün elan edilməsi barədə imzaladığı sərəncama əsasən, hər il 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir.

2009-cu ilin noyabr ayında Əmək Məcəlləsinin 105-ci maddəsinə əlavə edilmiş əlavəyə əsasən, bu əlamətdar gün ölkədə qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.

Qeyd edək ki, 2010-cu ilin sentyabrın 1-də Prezident İlham Əliyev tərəfindən Dövlət Bayrağı Meydanının - Bakı şəhərinin Bayıl səhəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olmuşdur. 162 metr yüksəklikdə dalğalanan Azərbaycan bayrağı dünyanın ən yüksək bayrağıdır. Dayağın hündürlüyü 162 m, bünövrəsinin diametri 3,2 m, bünövrənin üst hissəsinin diametri 1,09 m-dir. Qurğunun ümumi kütləsi 220 tondur. Bayrağın eni 35 m, uzunluğu 70 m, ümumi sahəsi 2450 m², kütləsi isə təqribən 350 kq-dır. Ginnes Dünya Rekordları Təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan Dövlət Bayrağı Dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

Cəfər Cabbarlı

AZƏRBAYCAN BAYRAĞINA

Kölgəsində ay əyilib bir gözəli qucmada,
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayır.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayır.

Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!

Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.

Səkkiz uclu şu ulduz da səkkiz hərfli Od yurdu
Əsərətin gecəsindən fürsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur.
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!

Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!

Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun, bir göy bayraq Turan üstə açılsın.

12 NOYABR AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA GÜNÜDÜR

Konstitusiya hər bir sivil ölkənin əsas qanunu kimi ən ali hüquqi qüvvəyə malikdir. Bu ali sənəd dövlətin quruluşunun və təməlinin prinsiplərini, cəmiyyətin siyasi, hüquqi və iqtisadi əsaslarını təsbit etməklə, həm də vətəndaş hüquqlarını özündə əks etdirir, ölkənin inkişaf prioritetlərini müəyyən edir.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olnmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyası idi. Məlum olduğu kimi, 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşür.

Azərbaycanın birinci Konstitusiyası 1921-ci ilin mayın 19-da I Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdir. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSR Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayında qəbul olunmuşdur. Azərbaycan SSR-in 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki Konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yarandı. Bunun üçün Prezident Heydər Əliyev başda olmaqla xüsusi komissiya yaradılmış, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmişdi, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur.

Hər bir ölkə üçün nə qədər vacib bir sənəd olsa da cəmiyyətin inkişafı, yeni ictimai-siyasi münasibətlərin meydana çıxması Konstitusiyada islahatların aparılmasını zəruri edir. Çünki Konstitusiya özü də bir qanundur və ictimai münasibətlərin inkişaf səviyyəsi, dövlət idarəçilik quruluşunun təkmilləşdirilməsi zərurəti onun da dəyişdirilməsini şərtləndirə bilər.

Ötən illərdə ölkəmizdə Konstitusiya islahatları davam etdirilmiş, beynəlxalq təcrübəyə əsasən demək olar ki, dövrün tələblərinə uyğun şəkildə dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, icra hakimiyyəti orqanlarının fəaliyyətinin yenidən təşkili, ictimai münasibətlərin tənzimlənməsi və digər bu kimi məsələlər öz müsbət həllini tapmışdır.

Konstitusiyaya əlavə və dəyişikliklər 24 avqust 2002-ci ildə və 18 mart 2009-cu ildə referendum yolu ilə edilib. 24 avqust 2002-ci ildə Konstitusiyanın 22 maddəsinə, ümumilikdə 31, 2009-cu ilin martın 18-də keçirilən referendumla Azərbaycan Respublikası Konstitusiyanın 29 maddəsinə ümumilikdə 41 əlavə və dəyişiklik edilib.

Bu il sentyabrın 26-da Konstitusiyamızda müasir dövrün tələblərinə uyğun olaraq mütərəqqi əlavə və dəyişikliklər edilməsi məqsədilə referendum keçirildi. Azad, ədalətli, demokratik və legitim şəraitdə keçirilən Ümumxalq səsverməsi ilə Konstitusiyanın 23 maddəsinə dəyişikliklər edilib, 6 yeni maddə əlavə olunub.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin olunması, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsi əsas prinsip kimi öz əksini tapıb.

"Əsgər"

BATAREYA DÖYÜŞ TAPŞIRIQLARINI MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİR

Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 16073 saylı hərbi hissənin Artilleriya batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir.

Batareyanın əsas vəzifələrindən biri də döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləməsi üçün bölmələri atəş dəstəyi ilə təmin etməkdir. Düşmənin önünü və dərinliklərini irəliçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin irəliləməsinə əlverişli şərait yaradır.

Artilleriya batareyasının komandiri baş leytenant Novruz Verdiyev şəxsi heyətdə peşəkarlıq səviyyəsinin artırılması, hərbə peşə vərdişlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması daima diqqət mərkəzində saxlanılır. Bu məqsədlə şəxsi heyət əvvəlcə nəzəri məşğələlərə cəlb olunur. Burada onlara minaatan qurğuların, reaktiv artilleriya komplekslərinin, eyni zamanda kəşfiyyət və hesablama cihazlarının taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları, o cümlədən, təhlükəsizlik tədbirləri öyrədilir. Sonra hərbi qulluqçular qazandıqları nəzəri bilikləri praktiki təlimlərə tətbiq edirlər.

Bu zaman nəzərdə tutulmuş müddət ərzində reaktiv artilleriya kompleksin atış mövqeyinə çıxarılması və kompleksin atəşaçma vəziyyətinə gətirilməsi üzrə məşqlər edilir.

Batareya komandiri şəxsi heyətin təlim və məşğələlərə məsuliyyətlə yanaşdığını, eləcə də nizam-intizam qaydalarına ciddi riayət etdiklərini xüsusilə vurğuladı. Elə bunun nəticəsidir ki, may ayında batareyanın şəxsi heyəti Müdafiə Nazirliyinin Goranboy rayonu ərazisində yerləşən təlim mərkəzində döyüş-atışlı taktiki-təlimlərdə yüksək nəticə yerlərə qazanmış və II yerə layiq görülmüşdür.

Baş leytenant Novruz Verdiyev verilmiş tapşırıqların öhdəsindən layiqincə gələn taqım komandiri leytenant Sadiq Nəbiyevin, top komandiri baş çavuş Mətləb Paşayevin, heyət nəfəri əsgər Sahil Mustafayevin, dolduru əsgər Tural Tərlanovun və kəşfiyyətçi əsgər Fərid Əliyevin adlarını çəkdi.

baş leytenant T.Əlizadə

VƏTƏNPƏRVƏRLİK ULULARIMIZDAN QALAN MİRASDIR

Gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi qarşıda duran əsas vəzifələrdəndir. Ulularımızdan bize miras qalan Vətənimizə sahib çıxmaq, onu qoruyub gələcək nəsillərə çatdırmaq hər bir Azərbaycan gəncinin borcudur.

Təbii ki, gənclərimiz öz Vətəninin şanlı tarixini, keçmişini bilərsə, dərindən dərk edərsə, o zaman onların vətənpərvərlik hissləri daha da güclənər.

Xalqımızın sahib olduğu Vətən sevgisi hələ lap qədimdə - şifahi xalq ədəbiyyatımızda, dastanlarımızda və digər tarixi əsərlərdə xüsusi qeyd olunub. Ulu əcdadlarımızın ən əziz saydığı varlıqlardan biri Ana idisə, o birisi Vətən idi. Onlar Vətəni hər şeydən üstün tutmuş, onun uğrunda canlarını belə fəda etmişlər.

Tarixin bütün dönəmlərində xalqımızın vətənpərvərlik hissinin yüksək olduğunu düşmənlərimiz də dilə gətiriblər. Orta əsrə aid tarixi qaynaqlarda qeyd olunub ki, Babəkin xilafətə qarşı vuruşduğu zamanərəblər azərbaycanlılar kimi Vətənini sevən bir xalq görmədiklərini etiraf etmişlər.

Vətən sevgisi, torpağa bağlılıq kimi hisslərin təbliği bu gün dövlətimizin diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Ölkəmizdə vətənpərvərlik kütləvi informasiya vasitələrində həmçinin, dərsliklərdə geniş şəkildə təbliğ edilməkdədir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət edən gənc hərbi qulluqçularımızın döyüş ruhunun yüksək olması, onların son dərəcə Vətəninə, xalqına bağlı, dövlət və dövlətçiliyə sadiqliyinin göstəricisidir.

"Əsgər"

NÖVBƏTÇİ BÖLMƏLƏRİN XİDMƏTİ DAİMA DİQQƏT MƏRKƏZİNDƏDİR

Bu gün Daxili Qoşunlarda hərbi şəhərciklərin etibarlı mühafizəsi Daxili Qoşunlar Komandanlığının nəzərətdə saxladığı mühüm məsələlərdən biridir. Hərbi hissələrin növbətçi bölmələrində xidmətin keyfiyyətinin yaxşılaşdırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilməkdədir. Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisinin müvafiq göstərişinə uyğun olaraq, komendant bölmələrinin xidmət yükünün azaldılması məqsədilə hərbi hissələrdə növbətçi bölmələr əsasən digər bölmələrdən təyin olunur.

Qoşunların 99713 saylı hərbi hissəsində də qarovul xidmətinin gücləndirilməsi, növbətçi bölmənin fəaliyyətinin yaxşılaşdırılması və hərbi hissənin etibarlı mühafizəsinin təşkili üçün mühüm işlər görülüb.

Bu barədə məlumat verən hərbi hissə komandirinin 1-ci müavini-Qərargah rəisi polkovnik Şəmsəddin Həsənov bildirdi ki, müddətdən artıq heqiqi hərbi xidmət hərbi qulluqçularından ibarət olan növbətçi bölmələrin əsas vəzifəsi hərbi hissəyə basqının qarşısının alınması, qarşıya çıxan qəfləti tapşırıqların yerinə yetirilməsidir.

Hər gün bölmə qəfləti tapşırıqlar üzrə müəyyən edilmiş komanda ilə qaldırılır. Gündəlik olaraq təlimatlandırılır, onlara üzərlərinə düşən vəzifələr izah olunur, ayıq-sayıq olmaları, silahların tətbiq olunma qaydası, o cümlədən, silahla davranma zamanı təhlükəsizlik qaydalarının gözlənilməsi diqqətə çatdırılır.

Növbətçi bölmələrin ən mühüm tapşırığı hərbi hissəyə basqının dəf edilməsidir.

Polkovnik Ş.Həsənov döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması, qarşıya qoyulmuş tapşırıqların tam və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə bütün hərbi qulluqçulara mütəmadi olaraq nəzəri və praktiki məşğələlərin keçirildiyini söylədi. Qeyd etdi ki, hərbi qulluqçuların ixtisas, fiziki və atəş hazırlıqları xüsusilə diqqət mərkəzində saxlanılır. Çünki hərtərəfli hərbi biliyə, fiziki dözümlüyə və sərrast atıcılıq qabiliyyətinə malik olan hər bir hərbi qulluqçu maneələrin dəf edilməsini asanlıqla bacarır.

leytenant X.Tağıyeva

Şəhidlərimiz

MƏRD, CƏSUR, QORXMAZ DÖYÜŞÇÜ İDİ...

İkinci Dünya müharibəsinin gedişində Gürcüstanın Ahıska bölgəsində yaşayan on minlərlə ahıska və digər türkdilli xalqların nümayəndələri Stalin repressiyasının qurbanı olaraq, kütləvi və məcburi şəkildə öz doğma yerlərindən deportasiya edilmişlər. Belə ki, 31 iyul 1944-cü il tarixdə SSRİ Dövlət Müdafiə Komitəsinin müvafiq qərarı ilə Gürcüstandan Qazaxıstan, Özbəkistan və Qırğızıstan çöllərinə köçürülmüş on minlərlə türk ailələrinin bir qismi Stalinin vəfat etməsindən sonra öz yurdlarına qayıtmış, bir qismi isə Azərbaycanı özlərinə doğma, arxa bilib respublikamızda məskunlaşmışdır. Ermənistanın torpaqlarımıza məlum təcavüzü zamanı onlar da silaha sarılaraq, Vətənimizin müdafiəsi uğrunda qəhrəmancasına vuruşmuşlar. Onların arasında Vətən uğrunda canlarını fəda edərək şəhidlik zirvəsinə yüksəlmiş oğullar da olmuşdur.

Belə qəhrəmanlardan biri də Daxili Qoşunların sıralarında döyüşmüş, şəhid hərbi qulluqçu, sıravi Rəsul-zadə Qasımovdur.

QASIMOV RƏSUL-ZADƏ AĞAMİR OĞLU

Sıravi Rəsul-zadə Ağamir oğlu Qasımov 1973-cü il dekabr ayının 12-də Qazaxıstan Respublikasının Çimkənd vilayəti - nin Tülkübaş rayonunda dünyaya göz açıb. Ağamir kişinin və Hürüxanım ananın böyüdüb boya-başa çatdırdığı beş övladdan (Azad, Rəsul-zadə, Cahanşah, Həmid və Rüstəm) biri və eyni zamanda, beş qardaşın ikincisi idi Rəsul-zadə. Orta təhsilinin ilk pilləsinə 1981-ci ildə Tülkübaş rayonundakı məktəblərdən birində başlamışdı. 1983-cü ildə qasımovlar ailəsi Qazaxıstan - dan Azərbaycana köçmüş və Xaçmaz rayonunun Pavlovka kəndində (indiki Müşkür kəndi - A.Ə.) məskunlaşmışlar. Ona görə də Rəsul-zadə orta təhsilini 1991-ci ildə burada bitirmişdir.

1991-ci ilin dekabrın 18-də R.Qasımov Xaçmaz RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Qardaşı Həmidin bildirdiyinə görə, Rəsul-zadə əvvəllər Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. Bir neçə ay sonra - 1992-ci ilin əvvəllərində onların hərbi hissəsi Bakıdan Qarabağa - döyüş bölgəsinə göndərilib: "Rəsul-zadə Daxili Qoşunlarda sürücü kimi xidmətini davam etdirmişdir. O, bacarığına və cəsarətinə görə bölüyün başçavuşu vəzifəsinə qədər yüksəldi. 1993-cü ildə demək olar ki, bütün Qarabağı gəzmişdi. Çıldırında, Ağdamda, Füzulidə olan döyüşlərdə iştirak etmişdi...

Komandirinin sözlərinə görə, Rəsul-zadə sürücü olduğu üçün ondan döyüşlərdə iştirak etməsi tələb olunmurdu. Amma ən yaxın dostları döyüşdə həlak olduqdan sonra döyüşlərdə iştirak etmək arzusunda olduğunu bildirib. Hətta döyüşlərin gizir Rəşad Babayev öz vəzifəsinin məsuliyyətini qeyd edərək, qarovul xidmətinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin və Daxili Qoşunların Döyüş Xidməti Nizamnaməsinin tələblərinə əsasən aparıldığını bildirdi, Qeyd etdi ki, döyüş xidmətinin yerinə yetirilməsinin keyfiyyətinin artırılması üçün şəxsi heyətin ixtisas və fiziki hazırlığı ilə yanaşı, mənəvi-psixoloji durumunun qənaətbaxş olması da çox vacibdir. Məhz bu faktorları nəzərə alan qarovul rəisi şəxsi heyətlə daim vətənpərvərlik mövzusunda fərdi söhbətlər apardığını söylədi.

Qarovulun şəxsi heyətinin seçilməsinə xüsusilə diqqət yetirdiyini qeyd edən baş gizir R.Babayev nizam-intizamlı, fiziki cəhətdən sağlam, yüksək atəş hazırlığına malik hərbi qulluqçuların xidmətə cəlb olunduğunu vurğuladı. Çünki qarovul nəfərlərinin fiziki dözümlülüyü və sərrast atıcılıq qabiliyyəti qarşıya çıxan istənilən maneənin aradan qaldırılmasında başlıca rol oynayır.

Tabeçiliyində olan hərbi qulluqçulara qarşı tələbkar, eyni zamanda, qayğı ilə yanaşan qarovul rəisi onların asudə vaxtlarının səmərəli təşkil edildiyindən də söz açdı. Asudə vaxtda şəxsi heyət müxtəlif növ ədəbiyyatlar mütaliə edir, stolüstü oyunlar oynayır.

Qarovul heyətində növbələrin sayına görə fəalların seçilməsi də olduqca önəmlidir. Fəallar əsasən daha hazırlıqlı baş əsgər və əsgər hərbi rütbəli hərbi qulluqçulardan təyin edilir. Onlar tərbiyə işi planında nəzərdə tutulmuş müvafiq tədbirlərin icrasını həyata keçirir, dövri mətbuatda dərc olunmuş məlumatları qarovulun şəxsi heyətinə çatdırır, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığını yoxlayır, xidmətin aparılmasına mane olan hər hansı bir hal olarsa, onları vaxtında aşkarlayır. Qarovul məntəqəsində daxili qaydanın qorunması xidmətin yüksək səviyyədə təşkilindən xəbər verir. Vəzifə borclarını qanunla müəyyən qarovul nəfərləri yaxşı başa düşür ki, heç kəs qarovul rəisinin icazəsi olmadan qarovul otağını tərk edə bilməz. Qarovul otağında sakitliyə və qaydaqanuna mütləq şəkildə əməl olunmalıdır. Oxumaq və çalğı alətlərində çalmaq qadağandır. Radio verilişləri yalnız qulaqlıq vasitəsilə dinlənilir. Papiros çəkmək, ayaqqabı təmizləmək üçün isə ayrılmış xüsusi yerlərdən istifadə edilir.

Bir sözlə, hərbi hissədən təyin edilmiş qarovullar tapşırıqları layiqincə yerinə yetirir.

leytenant N.Ağayeva

Onunla vaxtı ilə çiyin-çiyinə döyüşən və o dövrdə sürücü - sanitar təlimatçı əsgər kimi xidmət edən mayor Gülağa Meybiyev igid döyüşçü haqqında xatirələrini bizimlə bölüşərkən bunları dedi:

"İkimiz də sürücü idik. Çox sakit, gülərüz, zarafatı xoşlayan insan idi. 1992-ci ildə Ağdamın Qalayçılar kəndində tanış olmuşduq. Rəsul-zadəni çox yaxşı tanıyıram. Mərd, cəsur, qorxmaz döyüşçü kimi xatirimdə qalıb. Dostluqda və yoldaşlıqda möhkəm olmaqla yanaşı, sözündə və söhbətində dürüst insan idi. Yoldaşları ilə münasibətlərinə gəlincə, deyə biləərəm ki, hər kəslə mehriban davranan, deyib-gülən xasiyyəti vardı".

Rəsul-zadənin digər silahdaşı və ən yaxın dostlarından biri olmuş baş gizir Cabbar Abbasov da onun qəhrəmanlığını heç zaman unutmayacağını bildirir:

"Xeyli müddət keçməsinə baxmayaraq, düşünürəm ki, Rəsul-zadə ilə birgə yaşa - dığımız o ağrılı-acılı günlər heç zaman yaddaşımdan silinməyəcək. Mən onunla ilk dəfə Ağdərənin Ortakənddə yerləşən qərargahımızda tanış olmuşam. Sonralar onunla birgə Çıldıran, Mehmanə, Qaçaqot və digər yaşayış məntəqələri və yüksəkliklər uğrunda gedən döyüşlərdə iştirak et - mişəm. O, mənim ən yaxın döyüşçü dostlarımdan biri idi. Xarakterindəki əsl döyüş - çüyə xas olan qorxmazlıq və cəsurluq kimi müsbət keyfiyyətləri sayəsində silahdaşları arasında dərin hörmət və nüfuz qazanmışdı.

1993-cü ilin yanvarın əvvəllərində Çıldıran ətrafında gedən döyüşlər zamanı yaralandım. Rəsul-zadənin şəhid olma xəbərini də məhz həmin ilin mart ayında qospitalda olarkən eşitdim".

Vaxtı ilə Ağdərə cəbhəsində gedən ağır döyüşlərdə "leytenant" hərbi rütbəsinə tağım komandiri kimi erməni daşnaklarına qarşı mərdliklə vuruşmuş Rəsul Vəliyev (Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik - A.Ə.) Rəsul-zadənin qəhrəmanlığı və vətənpərvərliyi haqqında danışarkən qeyd edir: "Rəsul-zadə mənim ən cəsur, ən mərd döyüşçülərimdən biri idi. Gözündə qətiyyən qorxu hissi yox idi. Sürücü döyüşçü kimi ən qaynar nöqtələrə gedib-gelirdi. Ən ağır və məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlirdi. Təkcə sürücü kimi yox, həm də atıcı əsgər kimi də döyüş əməliyyatlarında iştirak edirdi. Sürücü olduğu üçün dəfələrlə onun döyüşlərdə iştirak etməsinə razılıq vermənsək də o, inadından dönməyərək, vuruşmaq arzusunda olduğunu bildirirdi, Ağdərədə Qlobus yüksəkliyinin azad edilməsi uğrunda aparılan hərbi əməliyyatlar zamanı Rəsul-zadə qəhrəmancasına şəhid oldu".

Şəhid R.Qasımovun həyat və döyüş yolundan bəhs edən yazılara Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmət Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Bundan əlavə, R.Qasımovun adı Daxili Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 262-ci sıra nömrəsi ilə qeydə alınıb.

Məlum həqiqətdir ki, hazırda Azərbaycanın torpaqlarımızı işğaldan azad etməyə qadir olan çox güclü ordusu var. Silahlı Qüvvələrimizin, o cümlədən də Daxili Qoşunların sıralarında bu gün də Rəsul-zadə kimi cəsur hərbi qulluqçular xidmət edir. Onlar şəhidlərimizin intiqamını qanıçan erməni faşistlərindən almağa, torpaqlarımızı azad etməyə hər an hazırdırlar.

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan A.Əhmədov
Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri

QAROVULDA DAXİLİ QAYDANIN QORUNMASI XİDMƏTİN YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİLİNDƏN XƏBƏR VERİR

16076 saylı hərbi hissənin şəxsi heyəti onlara həvalə edilmiş mühüm dövlət obyektlərinin etibarlı mühafizəsi və müdafiəsinin təmin edilməsi üzrə qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir. Hissənin döyüş hazırlığı da məhz bu istiqamətdə qəfləton qarşıya çıxan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsi ilə seçiyələnir.

Bununla əlaqədar, hərbi hissədə çevik və fasiləsiz idarə olunması hissə komandanlığının daim diqqət saxlanılır. Bölmələrdə yüksək döyüş hazırlığının qorunub saxlanılması təkmilləşdirilir, hərbi hissədən, habelə mühafizə olunan mühüm dövlət obyektlərinin yerləşdiyi fəaliyyət rayonlarından əməliyyat məlumatları fasiləsiz toplanaraq təhlil edilir. Qəbul olunmuş qərarlar vaxtlı-vaxtında aidiyyəti üzrə çatdırılır və əlaqəli orqanlarla qarşılıqlı fəaliyyət təşkil edilir.

Hərbi hissənin mühafizə etdiyi obyektlərdən biri də Daxili İşlər Nazirliyinin inzibati binasıdır. Xidmətin səmərəli və keyfiyyətli təşkil olunmasında bütün qüvvəsini səfərbər edən qarovul rəisi baş

DAXİLİ QOŞUNLARIN HƏRBİ QULLUQÇULARI ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİBLƏR

Hərbi hissələrdə şəxsi heyətin asudə vaxtının səmərəli təşkil edilməsi hissə komandanlığının diqqət mərkəzində saxladığı məsələlərdəndir. Bu məqsədlə mütəmadi olaraq, hərbi qulluqçuların paytaxtın gözəli-görməli yerlərinə gəzintiləri təşkil olunur.

Oktyabrın 16-da Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin komendant bölüyünün xidməti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, nizam-intizamlı hərbi qulluqçuları hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı kapitan Anar Əliyevin rəhbərliyi ilə Şəhidlər Xiyabanını ziyarət ediblər. Onlar ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini ehtiramla anaraq, məzarları üzərinə çiçəklər düzüblər.

Kapitan A.Əliyev hərbi qulluqçulara 20 yanvar hadisələri barədə məlumat verib. Qeyd edib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilməndən Sovet İttifaqının qoşun işçiləri və milis nəfərləri də olub. Xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən oğulları canlarından keçərək şəhidlik zirvəsinə ucalıb, öz adlarını mübarizə tariximizə qızıl hərflərlə yazdırıblar.

Daha sonra Şəhidlər Xiyabanında Daxili Qoşunların Qabirləşmələri Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhaliyə divan tutulub, yüzlərlə insan qətlə yetirilib, yaralanıb, itkin düşüb. Qoşun birləşmələrinin Bakıya daxil olması isə xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayət edilib.

Həmçinin bildirilib ki, həlak olanlar arasında qadınlar, uşaqlar, qocalar, tacili yardım rabağ müharibəsində şəhid olmuş hərbi qulluqçularının məzarları da ziyarət olunub.

Burada Daxili Qoşunların keçdiyi döyüş yolu, şəhid hərbi qulluqçularımızın göstərdikləri qəhrəmanlıqlar barədə ətraflı məlumat verilib, şəhidlərimizin şərəfli yolunun hər bir hərbi qulluqçu üçün nümunə olduğu vurğulanıb.

leytenant X.Tağıyeva